2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində
28 dekabr 2019-cu il tarixli 39 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində İmişli rayonu Hacıalmuradlı kənd sakini Həsənov Təbriz Hüseyin oğlu 2019-cu il dekabrın 28-də ərizə ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü 79 saylı İmişli seçki dairəsinin 23 və 24 saylı seçki məntəqələrində seçkilərin saxtalaşdırıldığını iddia edərək hər iki seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin yoxlanılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində İmişli rayonu Hacıalmuradlı kənd sakini Həsənov Təbriz Hüseyin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 dekabr 2019-cu tarixli 39 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov